# Milli mədəniyyətdə televiziya teatrının repertuar siyasəti



***Azərbaycan televiziya teatrının repertuarı milli klassika nümunəsi ilə başlayır və milli klassika üzərində də təşəkkül tapır. Bunun ilkin obyektiv şərti Azərbaycan ziyalılarının, Azərbaycanın fikir işçilərinin şəcərəsində, genetikasında maarifçilik rudimentlərinin güclü olması ilə bağlı idi. Heç də təsadüfi deyil ki, televiziya repertuarının ilk pyesi N.Nərimanovun "Şamdan bəy" əsəridir və bu əsər tam şəkildə maarifçilik ruhunda yazılıb.***

Təbii ki, 1956-cı ildə məhz maarifçi niyyətin gerçəkləşməsi üçün bu, son dərəcə uğurlu bir seçim idi. Lakin R.Kazımovski teatr ənənələrində formalaşmış və maarifçilik ideyalarına bələd bir rejissor (ziyalı) olsa da televiziya teatrının ruhunu böyük peşəkarlıqla düzgün müəyyənləşdirmişdi. Öz maarifçilik xislətindən əlavə N.Nərimanovun "Şamdan bəy" pyesi (müəllif əsərini "komediya" aılandırıb) intim-psixoloji dünyaya ünvanlanıb. Görünür, R.Kazımovskini, dramaturji baxımdan aşkar zəif pyesdə, məhz bu məqam maraqlandırmışdı. O, Şamdan bəy fiqurunu daha çox kamera qarşısında saxlamaqla tamaşadakı psixologizmi artırmışdı, yəni elə ilk dəfədən televiziya teatrının bədii-estetik mahiyyətinə varmışdı. Bu kimi yozumlarla rejissor Rauf Kazımovski Azərbaycan televiziya teatrının repertuar ənənələrini formalaşdırırdı.

Azərbaycan televiziya teatrının repertuarını beş onillik hüdudunda götürüb qruplaşdırmaq mümkündür. Birinci onillik 1956-66-cı, ikinci onillik 1966-76-cı, üçüncü onillik 1976-86, dördüncü onillik 1986-96-cı, beşinci onilliksə 1996-2006-cı illəri əhatə edir. Təbii ki, bu bölgü tam şərti xarakter daşıyır və ölkənin siyasi tarixi müstəisi üzərində qərarlaşır. Televiziya teatrının Azərbaycanda təşəkkülünün birinci onilliyi stalinizm epoxasının tamamlanması və dünya ilə "qırmızı bolşeviklər"in yaşam məkanı və yaşam tərzi arasında mövcud "dəmir" pərdənin azacıq qaldırılması mərhələsinə təsadüf edir. İkinci mərhələ Sovetlər Birliyində dissidentlik əhval-ruhiyyəsinin artması (İ.Brodski, V.Vısotski, A.Soljenitsın, A.Saxarov timsalında) ilə müşayət olunur. Azərbaycan televiziya teatrının repertuar siyasətindəki üçüncü onillik ictimai-siyasi həyatın durğunluq dövrünün mənəvi-əxlaqi koordinatlarında formalaşır. Dördüncü onillik isə Sovetlər Birliyinin "perestroyka" mərhələsində, milli azadlıq hərəkatlarının coşduğu bir zəmanədə gerçəkləşir. 1996-2006-cı illərin beşinci onilliyi isə Azərbaycanın müstəqillik dövrünün repertuarını özündə ehtiva eləyir. Niyə 1996-2006-cı illər milli televiziya teatrının repertuarında beşinci onillik kimi dissertasiyaya daxil edilib? Axı, tədqiqatın araşdırdığı zaman sırf XX əsri əhatə edir? Tamamilə doğrudur. Ancaq biz elə hesab edirik ki, Azərbaycanın teleməkanı XXI yüzilə adlasa da, televiziya teatrı sahəsində bu hələ baş verməyib. Düşüncədə və yaradıcı fəaliyyətdə bu hələ özünü heç nə ilə görükdürmür. Odur ki, tədqiqatçı beşinci onilliyin də (1996-2006-cı illər) tədqiqatın çərçivəsinə daxil edilməsində israrlıdır.

Teleteatr böyük bir klassika məktəbidir. Yarandığı və təşəkkül tapdığı illərdə televiziya teatrı həmişə klassikadan qaynaqlanmışdır. Teatra və kinoya nisbətən televiziya teatrının klassikaya müraciət etmək imkanı həmişə daha artıq olub. Məsələnin məğzi ondan ibarətdir ki, televiziya teatrı klassik əsərləri (istər milli, istərsə də dünya) qısa bir zaman intervalında geniş seyrçi auditoriyasına çatdıra bilir. Bu, maarifçilik deyilsə, onda bəs nədir?

Azərbaycan televiziya teatrının məzmun və qayəsini həmişə milli klassika müəyyənləşdirmişdir. Milli klassika Azərbaycan televiziya teatrının repertuarında 1956-86-cı illər intervalında, yəni 30 il ərzində, daha tez-tez görünmüşdür. Bu müddətdə N.Vəzirovun "Müsibəti-Fəxrəddin" (1959), "Ağakərim xan" (1961), Ə.Haqverdiyevin "Dağılan tifaq" (1959), "Şəbeh" (1960), "Bəxtsiz cavan" (1961) və (1981), "Marallarım" (1963), "Mirzə Səfər" (1975), "Diş ağrısı" (1970), M.F.Axundzadənin "Molla İbrahimxəlil-kimyagər" (1960), "Hacı Qara" (1961) və (1964), "Müsyö Jordan" (1962), "Lənkəran xaının vəziri" (1971), "Aldanmış kəvakib" (1974), C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" (1962), "Poçt qutusu" (1963), "Ölülər" (1965), "Qurbanəli bəy" (1965), C.Cabbarlının "Füruzə" (1969), "Dilbər" (1970), "Aydın" (1971), "Mənsur və Sitarə" (1977), H.Cavidin "Xəyyam" (1963), "Şeyx Sənan" (1974), "Topal Teymur" (1983), S.S.Axundovun "Laçın yuvası" (1963) və (1975), "Dibdat bəy" (1979), Y.V.Çəmənzəminlinin "Cənnətin qəbzi" (1967) və (1970) əsərləri əsasında hazırlanmış teletamaşalar efirlə yayımlanmışdır. Azərbaycan televiziya teatrının repertuarının özəyini 1956-86-cı illərdə milli klassiklərimizin bu əsərləri təşkil etmişdir. Lakin bu 30 ilin hər onili öz spesifikliyi ilə seçilir. Əgər birinci onillikdə milli klassika hegemon mövqelərdə dayanırsa, ikinci onillikdə milli klassika nümunələri kəmiyyətcə xeyli azalır, amma teleteatrın repertuarındakı mövqelərini itirmir. Üçüncü onillik çağında (1976-86-cı illər) artıq milli televiziya teatrının repertuarında müasir pyeslər klassik əsərləri kəmiyyətcə üstələyir. Məhz bu dönəmdə milli klassika nümunələri əsasında hazırlanmış teletamaşalar keyfiyyət baxımından öz sə- ləflərini ötüb keçir.

Azərbaycan televiziya teatrının 1956-86-cı illərdə formalaşdırdığı repertuarla bağlı bir neçə mühüm qənaətə gəlmək mümkündür. Birinci qənaət budur ki, Azərbaycan televiziya teatrı repertuar siyasəti baxımından milli teatrımız kimi maarifçilik dalğasına köklənmişdir. Yəni televiziya teatrı öz repertuar siyasətilə tamaşaçı tərbiyəsi (zövqün və qavrayışın dəyişdirilməsi) işinə başlayır. Bu fikir öz növbəsində A.Dadaşovla Q.Məhərrəmlinin tədqiqat əsərində söylədikləri mühüm müddəalarla səsləşir: "Artıq şərqli təxəyyülünə daxil olmuş Avropa teatr estetikası televiziya sayəsində ucqar əyalətlərin də düşüncə tərzini nizamlayır. Əyalət əvvəl kinematoqrafı, sonra isə televiziyanı çox çətinliklə qəbul etməyə başladı. Çünki ekran onun həyat və məişətini əks etdirməyən yad bir mədəniyyət ünsürü olaraq qalırdı. Teatr isə əyalətə tək-tük hallarda gəlib çıxırdı. Əyalətlərdə bir dəfə göstərilən teatr tamaşası, sözsüz ki, orada tamaşaçı zümrəsi yarada, keçmiş onilliklərin dili ilə desək, tamaşaçı tərbiyə edə bilməzdi. Söhbət o dövrdən gedir ki, onda partiya, komsomol kimi teatr və televiziya da tərbiyə etməliydi. Televiziya vasitəsilə kəndə gəlib çıxan teatr kənddə tamaşaçı zümrəsi yarada bilməsə də, ekranda göstərilən tamaşa, teatrın orta əsrdə Fransada teatr münasibətləri tipi yaratdığı kimi, əyalətdəkilərin davranışında müasir teatr münasibətləri tipi yaratdı" ( Dadaşov A.Ə., Məhərrəmov Q.M Televiziya və radio tamaşaları. - Bakı: Təhsil, 1999.-s.21 ). "Teatr münasibətləri tipi" ifadəsi tam aydın olmasa da, hər halda müəlliflərin demək istədikləri fikrin qayəsinə xələl gətirmir. Həqiqətən, televiziya teatrı əyalətlər (və təkcə əyalətlərdən ötrü yox) üçün bir maarifçilik pəncərəsi idi, milli Azərbaycan klassikasının yayımlandığı unikal bir "pəncərə" idi. Bu "pəncərə"dən mətnlər birbaşa intellektə, ruha və mənəviyyata ünvanlanmışdı. Lakin televiziya teatrının repertuarı heç də teatrın maarifçi repertuarının güzgüvari əksi olmamışdır.

İkinci nəticə isə budur ki, televiziya teatrının repertuarı mobil xarakter daşımışdır. 50-80-ci illərdə bir çox əsərlər məhz telestudiya koordinatlarında oynanıldıqdan sonra ayrı-ayrı teatrların repertuarına düşmüşdür. Televiziya teatrı milli klassika nümünələrindən tez-tez bəhrələnib öz repertuarını mütəmadi olaraq yeniləşdirmiş, başqalaşdırmışdır. Siyahıdan aydın görünür ki, heç bir klassika nümunəsi televiziya teatrının repertuarında uzun müddət davam gətirməmişdir. Bu da onunla bağlı olmuşdur ki, televiziya teatrında çalışan rejissorlar klassikaya əksərən məcbur qalıb müraciət etmişlər, telekonveyeri boş saxlamamaq xatirinə müraciət etmişlər və belə anlarda onlar qarşılarına yüksək yaradıcılıq vəzifələri qoymamışlar.

Üçüncü nəticə teleteatrın repertuarı üçün önəmli olan janr prinsipilə bağlıdır. Teleekran qarşısında oynanılmış milli klassika nümunələrinin siyahısını diqqətlə təhlil etsək, həməncə görəcəyik ki, burada seçim təsadüfi və volyuntar şəkildə aparılmamış və həmişə teleteatrın bədii-estetik tələblərinə uyğun omuşdur, yəni klassik əsərlər müstəvisindən materiallar teleteatr üçün necə gəldi seçilməmişdir. Maraqlısı ondan ibarətdir ki, bu əsərlər efirə yalnız teledram (telenovella, telekomediya) kimi çıxarılmışdır. Televiziya teatrı özünün tarixi təşəkkül dövründə klassika ilə işləyə-işləyə öz forma yaradıcılığı ilə məşğul olur, üslubiyyət sorağında bulunur, yeni ifadə metodları, yeni ifadə ritmi axtarır. Teleteatr klassikaya müraciət edərkən təkcə bu nümunələri tirajlamaq məqsədi güdmür. O, ilk növbədə özünü, öz ifadə formalarını tanımağa çalışır. Həqiqətən, televiziya teatrının rejissoru kimi fəaliyyətə başlamış R.Kazımovski, A.Dadaşov, A.Babayev və başqaları özlərini və bu yeni sənət formasını orqanik şəkildə mənimsəmək üçün, əlbəttə ki, klassikadan yararlanmalıydılar. Klassik əsərin ekran təfsirini, ekran yozumunu vermək məsələsi də müasir pyeslə müqayisədə rejissor üçün daha əlverişlidir. Belə ki, o, klassika nümunəsinin teleekran variantını yaradarkən orijinalı tanıtmaq, onun süjetini danışmaq məqsədini qarşısına qoymur.

Digər tərəfdən isə klassikanın məna qatları lay-laydır. Deməli, onun çoxsaylı yozumları mövcuddur.

Ancaq bununla yanaşı istənilən hər bir klassik əsərin teleekran müstəvisinə gətirilməsi mümkünsüzdür. Milli televiziya teatrının repertuarında milli klassika nümunələrinin xarakterinə əgər diqqətlə fikir versək, aşkarlanacaq ki, repertuarda pyeslərlə yanaşı hekayələrə, povestlərə də müraciət edilmişdir. Bu da heç əbəsdən olmayıb. Televiziya təhkiyəni sevir, monoloqu sevir. Bunun əsas səbəbi isə epik genişliyə olan meyldən meydana gəlir. Televiziya teatrının repertuar xüsusiyyətlərini araşdıran rus müəlliflərindən biri yazır ki, "öz strukturunun təbiəti etibarı ilə teletamaşa təkcə dramatik yox və hətta daha əhəmiyyətli dərəcədə epik formadır" (2 Сокольская А.Б. Зримое слово // ТВ и литература. -Москва, 1983. - s. 47).

Deməli, televiziya teatrı öz bədii-estetik xisləti baxımından Azərbaycan milli mədəniyyətinin strukturlarına daha yaxındır. Aşıq sənəti, nağılçı sənəti, kuklaçılıq sənəti prinsipcə, öz estetik təbiəti etibarı ilə təhkiyə üzərində qurulur. Ümumiyyətlə, epos bütün Şərq teatr formalarının beşiyidir. Odur ki, Rusiyadan milli mədəniyyət şəbəkəsinə import edilməsinə baxmayaraq televiziya teatrı asanlıqla ənənəvi mədəniyyətlə calaq olunur. Busa milli mədəniyyətin epik formalara açıq olmasının göstəricisidir.

**Akif ƏLİYEV**